MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

22 noyabr 2018-ci il
Cümə axşamı

№ 46 (3410)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI



Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BELARUSA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Belarus Respublikasına rəsmi səfərə gedib.

Azərbaycan Prezidenti İlham Əliyevi Belarusun Baş nazirinin müavini Mixail Rusıy və digər rəsmi şəxslər qarşılayıblar.

Azərbaycan Prezidenti Belarus Respublikasına rəsmi səfəri çərçivəsində noyabrın 19-da Minsk şəhərindəki "Qələbə" meydanında 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin şərəfinə ucaldılmış abidəni ziyarət edib.

Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

Belarus Respublikasında rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 19-da Minskdə Azərbaycan Ticarət Evi ilə tanış olub.

Dövlətimizin başçısına Ticarət Evində yaradılan şərait barədə məlumat verilib.

Sonda xatirə şəkilləri çəkdirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 19-da Minskdə rəsmi qarşılanma mərasimi olub.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Noyabrın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin Belarus Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olub.

Görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Dövlət başçıları görüşdə çıxış ediblər.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanmasından sonra ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr olunmuş birgə poçt markasının buraxılışı mərasimi olub.

Azərbaycanın və Belarusun dövlət başçıları markaları xüsusi ştamplarla möhürləyiblər.

Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenko üzərində marka olan zərfi imzalayıblar.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata birgə bəyanatla çıxış ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına rəsmi səfəri noyabrın 19-da başa çatıb.

PREZİDENT İLHAM ƏLİYEV TƏZƏPİR MƏSCİDİNİN ƏTRAFINDA GÖRÜLƏN ABADLIQ-QURUCULUQ İŞLƏRİNİN İCRA VƏZİYYƏTİ İLƏ TANIŞ OLUB

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 15-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin ətrafındakı ərazidə yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən tədbirlərin icra vəziyyəti ilə tanış olub.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib.

Prezident İlham Əliyevin 2016-cı ilin avqustunda imzaladığı müvafiq sərəncamlarla ayrılmış vəsaitlər hesabına Bakı şəhərinin Yasamal rayonunda yerləşən Füzuli meydanı ətrafındakı ərazidə yeni yolların çəkilməsi, yaşıllaşdırma və abadlıq işlərinin görülməsi, habelə Təzəpir məscidinin ətrafındakı ərazinin abadlaşdırılması, buranın yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və ziyarətə gələnlərə avtomobillərini saxlamaları üçün imkan yaratmaq məqsədilə həmin ərazidə iri həcmli layihələrin icrasına başlanılıb. İlkin mərhələdə Statistika dairəsi-Nərimanov heykəli-Füzuli meydanını əhatə edən 26 hektar ərazidə tıxacların aradan qaldırılması və yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülüb. O cümlədən Füzuli meydanını Nərimanov prospekti ilə birləşdirən yeni prospekt salınıb, yeni yol qovşaqları tikilib və mövcud küçələr genişləndirilib.

Aparılan işlərin gedişi ilə tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verib.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt şəhərinə səfərə gəlib.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Azərbaycan Prezidenti həmin gün Sumqayıt Kimya Sənaye Parkının rezidenti inşaat kimyəviləri zavodunun açılışında iştirak edib.

Dövlətimizin başçısı noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan "Baku Non Ferrous and Foundry Company" MMC-nin əlvan metallar və ferroərintilər zavodunun açılışında da iştirak edib.

Ölkə rəhbərimizə Daşkəsən rayonundakı dəmir-filiz yataqlarından istifadə edilməklə Gəncədə böyük metallurgiya zavodunun tikintisi ilə bağlı məlumat verilib. Artıq tikinti ilə bağlı texniki işlər yekunlaşıb. Qeyd edilib ki, Daşkəsəndəki yataqlarda yeni geoloji işlər və ehtiyatların qiymətləndirilməsi aparılıb.

Prezident İlham Əliyev əlvan metallar və ferroərintilər zavodunu işə salıb.

Dövlətimizin başçısı müəssisənin istehsal prosesi ilə tanış olub.

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıta səfəri çərçivəsində Dəmir Yolu Vağzalı Kompleksinin açılışında da iştirak edib.

Dövlətimizin başçısı İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsib.

Sonra Prezident İlham Əliyev Sumqayıt-Bakı marşrutu ilə hərəkət edən sərnişin qatarı ilə Bakıya yola düşüb.

Prezident İlham Əliyev Bakı Dəmir Yolu Vağzalına gəlib. Dövlətimizin başçısı "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən 2016-cı ildən bəri alınmış yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif dəmir yolu texnikaları ilə də tanış olub.

Dövlətimizin başçısına "Alstom Transport" ikisistemli sərnişin lokomotivi də təqdim olunub.

Sonda xatirə şəkli çəkdirilib.

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 14-də Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçi qəbul edib.

❖❖❖❖❖

Dövlətimizin başçısı noyabrın 14-də Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupda Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsinin təyin edilməsi haqqında sərəncam imzalayıb.

❖❖❖❖❖

Ölkəmizin rəhbəri noyabrın 15-də Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsu qəbul edib.

❖❖❖❖❖

Azərbaycan Prezidenti İlham Əliyev Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşlarını avtomobil yolu təsərrüfatının yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edib.

❖❖❖❖❖

Ölkəmizin rəhbəri noyabrın 15-də Azərbaycan Respublikasında avtomobil yollarının tikintisi və istismarı sahəsində fərqlənən bir qrup şəxsin təltif edilməsi haqqında sərəncamlar imzalayıb.

❖❖❖❖❖

Noyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

❖❖❖❖❖

Noyabrın 15-də dövlətimizin başçısı Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb.

❖❖❖❖❖

Ölkəmizin rəhbəri noyabrın 15-də Eldar Əziz oğlu Əzizovun Bakı Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.

❖❖❖❖❖

Dövlətimizin rəhbəri noyabrın 15-də Azərbaycan Gənclərinin VIII Forumunun iştirakçılarını təbrik edib.

❖❖❖❖❖

Noyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev milli bayram münasibətilə Omanın Sultanı Əlahəzrət Qabus bin Səidə təbrik məktubu göndərib.

❖❖❖❖❖

Noyabrın 15-də dövlətimizin başçısı Latviya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Raymonds Veyonisə təbrik məktubu göndərib.

❖❖❖❖❖

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 20-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

❖❖❖❖❖

Dövlətimizin başçısı noyabrın 20-də Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovu qəbul edib.

❖❖❖❖❖

Noyabrın 20-də dövlətimizin başçısı İlham Əliyev Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarının mükafatlandırılması haqqında sərəncamlar imzalayıb.

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Noyabrın 20-də Daxili İşlər Nazirliyində «Şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işi"nin və «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə»nin vəziyyətinə həsr olunmuş geniş kollegiya iclası keçirilib...

Bax səh.2.

VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2018-ci il noyabr ayının 24-də saat 10:00-da Sumqayıt Şəhər Polis İdarəsində Sumqayıt, Abşeron, Qobustan, Qubadlı, Zəngilan şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Noyabrın 20-də Daxili İşlər Nazirliyində «Şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işi"nin və «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə»nin vəziyyətinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov kollegiya iclasını açaraq müzakirəyə çıxarılan hər iki məsələnin aktual olduğunu və əməliyyat-xidməti fəaliyyətdə mühüm əhəmiyyət kəsb etdiyini xatırladıb, vətəndaşların müraciətlərinə baxılmasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim xüsusi diqqətində və nəzarətində olduğunu, məhz dövlət başçısının tapşırığına əsasən, son illər mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda mütəmadi olaraq vətəndaşların qəbulunu keçirdiklərini, problemlərini şəxsən dinlədiklərini vurğulayıb.

Qeyd olunub ki, bu mühüm işin məqsədyönlü təşkili, eyni zamanda, vətəndaşların polis orqanlarına inam və etimadının güclənməsinin, vətəndaş məmnunluğunun təmin edilməsinin başlıca şərtlərindən biridir.

Həmçinin, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cəmiyyətin mənəvi dəyərlərinə böyük zərbə vuran, bir çox ağır cinayətlərin törədilməsinin əsas səbəblərindən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə görülən işlərin vəziyyətinin müzakirə edilməsinin və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsinin vacibliyi də vurğulanıb.

Gündəlikdəki birinci məsələ ilə bağlı DİN Katibliyinin rəisi, polis general-mayoru Səfər Əliyev məruzə ilə çıxış edib. O, bildirib ki, bütövlükdə «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» 2003-cü il 24 noyabr tarixli fərmanın və «Açıq hökumətin təşviqinə dair» Milli Fəaliyyət Planının aidiyyəti müddəalarının icrası uğurla davam etdirilir.

Belə ki, son 3 ilə yaxın müddətdə nazirliyin rəhbərliyi tərəfindən 6.569, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın bölgələri üzrə 2.812, habelə ərazi polis orqanlarında 178 mindən çox vətəndaş qəbul edilib. Görülmüş tədbirlərlə cari ilin 9 ayında Azərbaycan Respublikası Prezidenti Administrasiyasından daxil olan şikayətlərin sayı 23,7 faiz, nazirliyə daxil olan şikayətlərin sayı 17,7 faiz, o cümlədən təkrar şikayətlərin sayı 25,7 faiz azalıb. Ümumilikdə, 55 şəhər və rayonun sakinlərindən polis əməkdaşları barədə daxil olan şikayətlərin sayında nəzərəçarpacaq azalma qeydə alınıb. Həmin dövrdə nazirliyə 2 minə yaxın həm fərdi, həm də kollektiv minnətdarlıq məktubları daxil olub.

Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanov gündəlikdəki ikinci məsələ barədə məruzə edib. O bildirib ki, nazirlik tərəfindən respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərinin məqsədyönlü təşkilinə, bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsinə böyük önəm verilir və davamlı tədbirlər görülür. Yeniyetmə və gənclər arasında narkotik vasitələrdən istifadənin qarşısının alınması, hüquqi maarifləndirmə, sağlam həyat tərzinin təbliği mövzularında təkcə cari ilin 9 ayında 78 şəhər və rayonda 695 görüş keçirilib ki, bu tədbirlərin də yarıdan çoxunda polis rəisləri digər hüquq-mühafizə və səhiyyə orqanlarının nümayəndələri ilə birlikdə iştirak ediblər. Həmin müddətdə narkotiklərlə əlaqədar cinayətlər törətmiş 67 nəfərdən ibarət 28 cinayətkar qrup zərərsizləşdirilib, 117,5 kiloqram narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb. Qanunsuz dövriyyədən 960 kiloqrama yaxın müxtəlif növ narkotik vasitə, habelə 3 kiloqramdan çox sintetik tərkibli psixoaktiv maddələr çıxarılıb. Narkotik tərkibli bitkilərin qanunsuz kultivasiyasının və yabanı halda yayılmasının profilaktikası sahəsində həyata keçirilmiş tədbirlərlə 132 ton çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.

Gündəlikdəki məsələlər ətrafında çıxış edənlər görülmüş işləri, əldə olunmuş nəticələri qeyd etməklə yanaşı, fəaliyyətdə buraxılan bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində kəsərli tədbirlərin həyata keçiriləcəyini bildiriblər.

İclasa yekun vuran daxili işlər naziri, general-polkovnik Ramil Usubov müzakirə olunan hər iki məsələ üzrə fəaliyyətin bütövlükdə qənaətbəxş olduğunu vurğulayıb, eyni zamanda, qeyd olunan nöqsan və çatışmazlıqların aradan qaldırılmasını tələb edib, konkret tapşırıq və tövsiyələrini verib.

Nazir "Narkotiklərlə mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ilin 16-18 aprel tarixlərində Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 noyabr tarixli sərəncamının icrası istiqamətində zəruri tədbirlərin görülməsini də tələb edib, həmçinin güclü təsirə malik olan narkotiklərin qanunsuz dövriyyəyə girmədən aşkarlanmasının, onları qaçaqmalçılıq yolu ilə ölkəyə gətirən şəxslərin müəyyən edilməsinə yönəlmiş əməliyyat-axtarış tədbirlərinin, eləcə də yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın effektivliyinin daha da artırılmasının vacibliyini diqqətə çatdırıb.

Sonda daxili işlər naziri ölkə Prezidenti cənab İlham Əliyevi əmin edib ki, şəxsi heyət ölkənin qanunlarından, dövlət başçısının fərman və sərəncamlarından irəli gələn tələbləri layiqincə yerinə yetirəcək, xalqa və dövlətə sədaqətlə xidmət edəcək, asayişin, əmin-amanlığın, habelə dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək, həmişə olduğu kimi, cari ili də yaxşı nəticələrlə başa vuracaqdır.

20 noyabr 2018-ci il

MÜKAFATLAR
TƏQDİM OLUNDU

Azərbaycan Polisinin 100 illik yubileyi ilə bağlı keçirilən tədbirlər sırasında tariximizi, həmkarlarımızın çətin və şərəfli xidmətini, Vətənə, xalqa, dövlətçiliyimizə sədaqətini, qəhrəmanlığını təcəssüm və tərənnüm edən yaradıcılıq işləri üzrə müsabiqə elan olunmuşdu. Seçimə onlarla yaradıcılıq məhsulu təqdim edilib və artıq "yarış"a yekun vurulub.

"Azərbaycan"qəzetinin şöbə müdiri İxtiyar Hüseynlinin ***"İstiqlalın canlı sipərləri"*** yazısı "Ən yaxşı oçerk", AzTV-nin əməkdaşı Tural Məmmədovun ***"Azərbaycan Polisi-100"*** sənədli filmi isə "Ən yaxşı film" nominasiyaları üzrə mükafata layiq görülüb.

Noyabrın 17-də daxili işlər naziri, general-polkovnik Ramil Usubov müsabiqənin qaliblərini qəbul edib.

Nazir mükafatçı jurnalistləri təbrik edərək Azərbaycan Polisinin şanlı tarixini, çətin və şərəfli xidmətini yüksək peşəkarlıqla işıqlandırdıqlarına görə onlara təşəkkürünü bildirib. O, polisin 100 illiyi münasibətilə elan edilmiş müsabiqənin tam şəffaf şəkildə keçirildiyini, ekspert qrupu tərəfindən tələblərə cavab verən yaradıcılıq nümunələrinin ədalət prinsipləri əsasında müəyyən edildiyini xüsusi vurğulayıb.

Qeyd olunub ki, müsabiqənin şərtlərinə, sənətkarlıq xüsusiyyətlərinə, Azərbaycan Polisinin xidmətini daha layiqincə geniş oxucu kütləsinə və tamaşaçı auditoriyasına təqdim edə bildiyi üçün adı çəkilən jurnalistlər fərqləniblər.

Nazir Ramil Usubov keçirilən bu cür tədbirlərin polis-media münasibətlərinin daha da dərinləşməsinə, insan hüquq və azadlıqlarının qorunmasına, ölkəmizdə multikultural dəyərlərin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Müsabiqənin qalibləri yaradıcılıq nümunələrinə yüksək qiymət verdiyinə və səmimi qəbula görə daxili işlər nazirinə minnətdarlıqlarını bildiriblər.

Sonra onlara diplomlar, pul mükafatları təqdim olunub və xatirə şəkli çəkdirilib.

DİN-in Mətbuat Xidməti

BULUDLARIN KÖLGƏSİNDƏ...

Ağrı-acılı günlərimiz daha çox olub tarixdə. Səbəbi çoxdur. Allahın bizə verdiyi belə gözəl torpaqlarda, yer üzündə maraqların birləşdiyi məmləkətdə yaşamağımız, bəxtimizin qonşular qisməti, bir az da öz içimizdən, sapı da, dəmiri də bizdən olan, düşmən əli, öz feli ilə sürtülmüş baltaların ciddi-cəhdi əsas səbəblərdən olub.

Hansı daha güclü olub, bilmirik. Bildiyimiz bircə odur ki, hər zərbədən, hər badalaqdan, hər xəyanətdən sonra özündə təpər tapıb dikələ bilib xalqımız. Dikəlib, itirə-itirə bərkiyib, çoxalıb, hər qan verən yarasından pöhrə, boy verib...

20 noyabr faciəsindən 27 il keçdi. Şəhidlərimizin sayı artdı, daha bir səhifə yazıldı taleyimizə...

Sonralar bu faciə ilə bağlı da ən müxtəlif fərziyələr yayıldı. Guya, əvvəlcə vertolyotun vurulub salınması və içərisində olan bəzilərinin girov götürülməsi, digər millətlərdən olan bir qisminin azad edilməsindən tutmuş, buna bənzər fikirlər irəli sürüldü. Lakin həqiqət budur ki, içərisində dəyərli insanların da olduğu vertolyot mühafizə olunmamışdı, təhlükəsizlik qaydaları kobudcasına pozulmuşdu və s.

Sonradan aparılan təhqiqat və istintaq nəticəsində o da məlum oldu ki, vertolyot "Barret M82A1" silahından açılan atəşlə vurulub. Həmin snayperli silahla 2 kilometr məsafədə uçan təyyarəni, helikopteri, həmçinin zirehli maşınları sıradan çıxarmaq mümkündür. Bu qırğın silahı hədəfə dəyərkən güclü yanğın törədir. İndiyəcən də dilənə-dilənə səfalət içində yaşayan Ermənistanın hələ o vaxt belə mükəmməl və bahalı silahı alması faktının özü qıcıq yaradan suallar doğurur...

Adlarını yazmırıq, adlarını bilirsiniz. Ən azından ildə bir yol da olsa yada salırıq...

Allah bütün şəhidlərimizə, qanı yerdə qalanlara rəhmət eləsin.

X.Cavid,
T.Aytən

BİR TALEYİN İŞIĞINDA...

Tale hamı kimi onu da çox sınaqlara çəkib. Bərkə-boşa düşsə də bu çətin imtahanlardan da qalib çıxmağı bacarıb.

1938-ci il noyabrın 28-də Tovuzda qayğı dolu bir ailədə dünyaya göz açıb. Lap kiçik yaşlarından hüquqşünas olmaq istəyib. Atasının müəllim olması təhsilə marağını daha da artırıb, kitab əlindən düşməyib. Bu arzu ilə də orta məktəbi bitirdikdən sonra sənədlərini Azərbaycan Dövlət Universitetinin Hüquq fakultəsinə verib.

1963-cü il ali məktəbi bitirdikdən sonra daxili işlər orqanlarında xidmətə başlayıb **istefada olan polis mayoru Nizami Axundov**. Peşəsini sevərək yaşayıb uzun illər. Cinayətkarlıqla mübarizəyə, rayon sakinləri ilə münasibətdə polis-vətəndaş həmrəyliyinin möhkəmlənməsinə xidmət edib. Daşkəsən, Qazax, Goranboy və Zaqatala rayonlarında xidmət etdiyi illərdə çalışıb ki, insanlarla xoş ünsiyyət qursun, onların köməyinə çatsın. Bilik və bacarığını səfərbər edib, hər bir işi uğurla başa çatdırmağa çalışıb. Onu yaxşı xatırlayırlar. Həmkarları da ağsaqqal veteranımızın adını ehtiramla çəkir, onun həyat təcrübəsindən yararlandıqlarını xüsusi qeyd edirlər.

Daxili işlər orqanlarında məsul vəzifələrdə çalışan Nizami müəllim təqaüdə çıxdıqdan sonra müxtəlif yerlərdə hüquqşünas kimi fəaliyyət göstərib.

İllər saçlarını ağartsa da, qəddi-qaməti bükülməyib. Həyatından razıdır. DİO-da xidmət etdiyi illəri ömrünün ən dəyərli dövrü sayır. Gözəl ailə sahibidi, bir qız övladı, iki nəvəsi var.

Səksənin astanasında olan ahıl həmkarımızın fikrincə, ölkə və DİN rəhbərliyinin diqqət və qayğısı əməkdaşlarımıza, o cümlədən gənclərə daha yaxşı işləmək və özünü müsbət tərəfdən göstərmək imkanı verir. Ona görə gənc əməkdaşlar indi daha səylə və məsuliyyətlə çalışmalı, öz üzərlərində işləməli, dünyagörüşlərinin və peşəkarlıqlarının artırılması qeydinə qalmalı, bu yolda ağsaqqal həmkarlarının bilik və bacarıqlarından yararlanmalıdırlar.

Hörmətli veteranımızla görüşümüz yubileyi ərəfəsinə düşdü. Səsində bir kövrəklik olsa da, qürurla danışdı öz həyat hekayəsini. İlk və son sözü də bu oldu ki, gərək hər bir insan öz işinə vicdanla yanaşsın. Onda həyatda yaşamaq gözəl olur.

Biz isə öz növbəmizdə ürəyi yaşayıb-yaratmaq eşqi ilə döyünən, şərəfli ömür yaşayan həmkarımıza yenə də gözəl, mənalı illər, ən əsası, cansağlığı arzulayırıq.

Aytəkin Nəcəfova,
polis polkovnik-leytenantı

Bir yarış, bir qalib

Polis Akademiyasının şəxsi heyətinin sıra hazırlığının yüksəldilməsi məqsədilə Hərbi kafedranın müəllimləri tərəfindən təşkil olunmuş daha bir yarışa start verilib.

Əvvəlcə sıra yarışının mərhələləri üzrə kursantların tək-tək sıra hərəkətləri, hərbi salamın verilməsi, silahla və silahsız sıra elementlərinin yerinə yetirilməsinə baxış keçirilib. Sonra nəzəri sualların cavablandırılması yoxlanılıb. Münsiflər heyətinin rəyinə əsasən, I kursun 3-cü taqımı 42 balla 1-ci yerə, II kursun 6-cı taqımı 35 balla 2-ci yerə, III kursun 6-cı taqımı 28 balla 3-cü yerə layiq görülüblər.

Qalib komandaya mükafat təqdim edilib.

Yarış şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

T.Hafiz

Buzovna qəsəbəsindəki 206 saylı tam orta məktəbdə Xəzər RPİ-nin rəhbərliyi tərəfindən təşkil olunmuş "Narkomaniya sosial bəladır", "Dini radikalizm və ekstremizm" və "Sosial şəbəkələrdə bəzi oyunlar gələcəyimiz olan övladlarımızın həyatı üçün təhlükəlidir" mövzularında növbəti tədbir keçirilib.

O GÜN DƏRSİ POLİSLƏR KEÇDİLƏR...

Tədbirdə RPİ-nin rəisi, polis polkovniki Azər Muradov çıxış edib. Qeyd olunub ki, məqsəd yeniyetmələrə, gənclərə, həmçinin pedaqoji kollektivlərlə canlı ünsiyyət qurub problemi müzakirə etmək, tövsiyyələr verməkdir. Hazırda Azərbaycanın, demək olar ki, hər bir bölgəsində bu cür tədbirlər təşkil olunur, məqsəd isə "ağ ölüm" deyilən bəşəri bəlanın nə dərəcədə fəlakətli, adından göründüyü kimi, insan həyatını məhvə aparan, insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan amil, bir bəla olduğunu aşılamaqdır.

RPİ Veteranlar Şurasının sədri İsmayıl Qasımov və Buzovna Məscidinin axundu Hacı Soltan Əlizadə çıxış edərək narkotikin, erkən nigahın fəsadlarından söhbət açıb gənclərin sağlam, vətənpərvər ruhda böyüməsinin cəmiyyətin gələcəyi üçün zəruri olduğunu izah ediblər. Onlar din adına yalan vədlər verib insanları xurafata sürükləyənlər haqda da danışaraq gəncləri onların təsirindən qorumaq üçün valideynlərin üzərinə böyük vəzifələr düşdüyünü bildiriblər.

Polis Akademiyasının müəllimi, polis leytenantı Ata Vəliyev və Rayon İcra Hakimiyyətinin nümayəndəsi Ofeliya Məmmədzadə "Sosial şəbəkələrdə bəzi oyunlar övladlarımızın həyatı üçün təhlükəlidir" mövzusunda çıxış ediblər, internetin zərərli və faydalı tərəfləri barədə şagirdlərə məlumatlar veriblər.

Xəzər RPİ-nin və Rayon Gənclər və İdman İdarəsinin nümayəndələri çıxışlarında deyiblər ki, gənc nəsil elə ailədən, bağçadan və daha çox da məktəbdən sağlam ruhda, sağlam təfəkkürlə tərbiyə olunmalıdırlar. Məktəb direktorları valideynlərlə daim ünsiyyətdə olmalı, pedaqoqlar hər bir şagirdə öz övladı kimi baxmalıdırlar.

R.Əliyeva,
polis leytenantı

BİR AMAL VAR: XİLAS ETMƏK!

NBPİ Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları reyd zamanı noyabrın 14-də Hövsan qəsəbəsində dəniz sahilində yerləşən vətəgədə Qida Təhlükəsizliyi Agentliyinin müvafiq icazəsi olmadan kustar üsulla, antisanitariya şəraitində hisə verilmiş balıq hazırlayan qəsəbə sakini Emil Abdulrəhimovu saxlayıblar. Həmin şəxsdən hisə verilmiş xeyli kütüm, siyənək və qaxac edilmiş balıqlar götürülüb. Araşdırma zamanı onun sərxoş vəziyyətdə olduğu da müəyyən edilib.

Bu hadisə xəbər saytlarında yayımlandı. Bəlkə də hisə verilmiş balıq adı ilə "ölüm satan" bu şəxs polis tərəfindən saxlanılmasaydı kim bilir, neçə ailə başsız, övladsız qalacaqdı. Qida təhlükəsizliyi ilə bağlı dövlət qurumlarının həyəcan təbili çaldığı dönəmdə bu faktın üstünün açılması polisin insan həyatına verdiyi dəyərin ən bariz nümunəsidir.

Bəli, balıq mövsümüdür. Hər birimiz Xəzərin bu gözəl nemətindən dadmaq, onu əzizlərimizə, doğmalarımıza yedirtmək istəyirik. Hisə verilmiş balıq adı altında aldığımız bu kabus isə ömrümüzü yarıda qoyur. Maraqlı olan həm də budur ki, tutulan şəxs içki düşkünüdür. O, bir şüşə spirtli içkidən ötrü nəyə desən gedər...

Təbiəti çirkləndirən, Xəzərimizə qənim kəsilənlərlə mübarizədə həyatlarını risqə atan sözügedən qurumun fəaliyyətindən dəfələrlə yazmışıq. Bir, beş, on deyil, onlarla insanın həyatını ölümün əlindən alan, qısa zaman kəsiyində etibarı, inamı doğrultmaq üçün idarənin imkanlarını və şəxsi heyətini səfərbər edən polis polkovniki Rövşən Eyyubovla məlum hadisə ilə bağlı daha ətraflı məlumat almaq üçün görüşdük.

"Düzü, bu barədə məlumat alanda əməkdaşları təlimatlandırdım və uğurlu bir əməliyyat təşkil etdik. İşin cinayət tərəfi qalsın, axı, aldığı məhsulun necə hazırlanmasından xəbəri olmayan onlarla şəxsin həm özünün, həm də ailə üzvlərinin zəhərlənməsinə səbəb olan işbazları elə "iş başında"ca yaxaladıq. Gördüyümüz mənzərədən dəhşətə gəldik. O, müxtəlif əşyaları yandırmaqla bəlkə də çoxdan tutulmuş balıqları hisə verirdi. Antisanitar qaydada balıq məhsulları hazırlanan yerin zibilliklər içində olduğunu görəndə bu adamın vicdan hissini itirdiyinin şahidi olduq. Cüzi qazanc və bir şüşə spirtli içki üçün belə bir çirkin niyyətə əl atmağa nə ad vermək olar ki?

Yeri gəlmişkən həmin məmulatlar xüsusi laboratoriyaya təqdim edilib. Həkimlər deyiblər ki, belə antisanitar qaydada hazırlanan məhsullarda "Botulizm xəstəliyi" aşkarlanır. Bu isə ağır qida toksiki infeksiyası qrupuna aid olan xəstəlikdir...

Təbiətimizə qənim kəsilənlərə gəlincə, onların başının üstünü polis anındaca alır. Bu gün Xəzər dənizi də daxil olmaqla, gölləri, çayları, su hövzələrini, sututarları polis gecə-gündüz, özü də ayıq və sayıq qoruyur.

Öyrənirik ki, şəhid ailələrinə, əlil və şikəst insanlara, dəniz sahilində yaşayan və yemək üçün "3-5" balıq tutanlara güzəştlər edilir. Əsas odur ki, onlar qanunun, deməli, polisin haqlı tələblərinə riayət edib insan həyatını risqə atmasınlar.

"Polisin haqlı tələbləri", düzü, bizim də marağımıza səbəb oldu. "O, hansı tələblərdir" sualımız cavabsız qalmadı: "Mübarizə öz yerində, ancaq əsas işimizi maarifləndirmə üzərində qurmuşuq. Balıqçılıqla məşğul olan şəxslər müvafiq qurumlardan icazə alırlar. Polis yalnız bir halda onların fəaliyyətinə müdaxilə edə bilir: Əgər şəxs 5 kiloqramdan çox balıq tutubsa və ya adı "qırmızı kitaba" salınmış balıqları, ov quşlarını ovlayıbsa, ən ümdəsi, həyatını təhlükəyə ataraq ov etmək üçün təyin edilmiş məsafədən uzağa gedibsə, o zaman polis onun fəaliyyətinə müdaxilə edir."

Bunları da polis polkovniki Rövşən Eyyubov dedi. O, brokonyerliklə, bir sözlə, təbiətə qənim kəsilənlərlə mübarizədə fədakarlıq göstərən əməkdaşların- "Brokonyerliyə qarşı mübarizə və balıq ehtiyatlarını mühafizə" bölməsinin rəisi, polis mayoru Elmir Süleymanovun, polis mayoru Cahangir Məmmədovun, polis baş leytenantı Xəqani Məhərrəmovun, polis leytenantları Məhərrəm Əliyevin, Murad Əsədzadənin, polis serjantları Musa Soltanovun, Xəyyam Musayevin və Azər Mirzəyevin adını xüsusi vurğuladı.

H.Təmirov,
polis mayoru

Baş İctimai Təhlükəsizlik İdarəsi tərəfindən yetkinlik yaşına çatmayanların baxımsızlığı, hüquq pozuntularının profilaktikası sahəsində maarifləndirmə tədbirləri davam etdirilir.

MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB

Növbəti belə tədbir Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecində Abşeron rayonundakı tam orta məktəblərin yuxarı sinif şagirdləri ilə keçirilib. Toplantıda Rayon Polis İdarəsinin, İcra Hakimiyyətinin nümayəndələri, eləcə də pedaqoji heyət, narkoloq və psixoloqlar iştirak ediblər.

Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantı Əkbər Əkbərov görüşün məqsədini açıqlayıb və mövzuları elan edib.

"Yetkinlik yaşına çatmayanların baxımsızlığı və hüquq pozuntularının profilaktikasında polisin rolu" və "İnternetdən təhlükəsiz istifadə qaydaları" mövzularında çıxış edən Ə.Əkbərov törədilən hüquqpozmaların fəsadları barədə danışıb.

Abşeron Rayon Polis İdarəsinin xidmət üzrə rəis müavini, polis polkovniki Elçin Rəcəbov "Yetkinlik yaşına çatmayanların cinayətə meylliliklərin fəsadları və onların məruz qaldıqları zorakılıqdan müdafiəsi" və "təhsildən qərəzli şəkildə yayınmaların qarşısının alınmasında daxili işlər orqanlarının rolu", İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın sədri Hafiz Mikayılov, VVAQ şöbəsinin müdiri Qəhrəman Rəcəbli, narkoloq-həkim Aybəniz Baxışova və başqaları "Narkotiklər haqqında nə bilirik?", həmçinin "Erkən nikahın fəsadları və qarşısının alınmasında gənclərin fəallığının artırılması" mövzularında çıxışlar edərək ətraflı məlumat veriblər.

Çıxışlarda narkomaniyanın yayılmasına, dini radikalizm və erkən nikah hallarına qarşı hamılıqla mübarizə aparılmasının vacibliyi önə çəkilib, bu işdə əmək kollektivlərinin, müəllimlərin, gənclərin, habelə valideynlərin üzərinə çox böyük vəzifələrin və məsuliyyətin düşdüyü vurğulanıb.

Natiq Cavadov,
polis kapitanı

Daha bir qələbə xəbəri

Azərbaycanın idman ölkəsi kimi tanınmasında, himnimizin dünyanın böyük idman arenalarında səslənməsində polis idmançıların da əməyi az deyil. Bu qəhrəmanlar sabitliyin keşiyində dayanır, asayişi qoruyur, həm də cinayətkarlıqla mübarizə aparırlar...

Onunla redaksiyamızda görüşdük. "Yəqin ki, yenə də qələbə ilə dönmüsən" sualın cavabı belə oldu: "Həmişəki kimi…"

Xəzər RPİ Post-Patrul Xidmətinin tağım komandiri, polis mayoru İlkin Səfərovun adı idmansevərlərə yaxşı tanışdır. Onu bu gün təkcə vətənimizdə deyil, dünyanın əksər ölkələrində adlı-sanlı bir idmançı kimi tanıyırlar. 2010-cu ildən bu günə kimi qatıldığı hər bir yarışdan, döyüşdən qalib kimi ayrılıb...

O gündən bu günə kimi həmkarımızın "Mübariz keşikdə"nin səhifələrində qələbələrindən yazmışıq.

Yenə də vədinə əməl etmişdi: "DİN İdman Cəmiyyətinin adından Birləşmiş Ərəb Əmirliklərində döyüş növləri üzrə 15-18 noyabr tarixlərində 37 ölkənin iştirak etdiyi dünya çempionatında bayrağımızı ucaltmaq və çempion adını qazanmaq üçün, sözün əsl mənasında, ağır sınaqlardan keçdim. Bu dəfə 93 kiloqram çəkidə döyüşürdüm. Döyüşlərin hər biri gərgin keçdi. Rəqiblərim çox güclüydü. İlk rəqibim misirli idi. Ona qalib gəldikdən sonra məndə belə bir hiss yarandı ki, növbəti döyüşlərim də qələbə ilə nəticələnəcək. Rəqiblərimdən əsas üstünlüyüm psixoloji baxımdan hazırlıqlı olmağımdı. İkinci döyüşüm fransızla, üçüncü döyüşüm mərakeşli idmançı ilə oldu. Onları da məğlub etdim və yarışın qızıl medalını qazandım."

İdmançımız dekabr ayında ölkəmizdə keçiriləcək daha bir möhtəşəm yarışda gücünü sınayacağını və qələbə əzmi ilə məşqlərini davam etdirdiyini dedi.

T. Hafiz

BAKI ŞƏHƏR BAŞ POLİS İDARƏSİNDƏN

Noyabrın 17-si saat 16 radələrində Azərbaycan Xalq Cəbhəsi Partiyasının təxmini sayı 150 nəfərə qədər olan üzvləri Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən əvvəlcədən xəbərdarlıq edilmələrinə baxmayaraq, özlərinin adlandırdıqları "Meydan hərəkatı"nın 30 illiyi ilə əlaqədar, əslində isə siyasi məqsədlərlə paytaxtın Parlament prospektinə toplaşmaqla Şəhidlər Xiyabanı istiqamətində yürüş-mitinq keçirməyə cəhd göstərmişlər. Ərazidə xidmətdə olan polis əməkdaşlarının operativ olaraq həyata keçirdikləri qabaqlayıcı tədbirlərlə ictimai asayişin pozulması ilə müşayət olunan icazəsiz yürüş-mitinqin qarşısı alınmış və aksiyanın 52 nəfər iştirakçısı Səbail Rayon Polis İdarəsinə gətirilmişdir. Onlardan 41 nəfəri xəbərdarlıq edilərək sərbəst buraxılmış, AXCP-nin sədri Əli Kərimli başda olmaqla aksiyanın təşkilatçıları olan 11 nəfər saxlanılmışlar.

Faktla bağlı RPİ-də İnzibati Xətalar Məcəlləsinin 513.1 və 513.2-ci maddələri ilə inzibati protokollar tərtib olunmuşdur, toplanmış materiallar baxılması üçün rayon məhkəməsinə göndəriləcək.

MARAQLIDIR

❖Keçmiş zamanlarda pullar qiymətli metallardan hazırlanırdı. Dələduzlar isə bundan istifadə edib pulların kənarlarını səliqəli şəkildə kəsərək satırdılar. Metal pulların fırıldaqçılardan qorunma üsulunu Böyük Britaniya Kral Zərbxanasının əməkdaşı və eyni zamanda dünyaca məşhur alim İsaak Nyuton kəşf edib. O, metal pulların nahamar kənarla buraxılmasını təklif edib və bununla dələduzluğa son qoyulub.

❖Neapolda bir kafe var. Gələn müştəri 5 qəhvə içirsə, üstəlik, əlavə 2-sinin də pulunu ödəyib gedir. Buna "asqıda qəhvə" deyirlər.

Bir müddət sonra kafeyə 3 vəkil gəlir və 7 qəhvə sifariş verirlər. Üçünü içib, 7-nin pulunu verib gedirlər. Bir müddət sonra kasıb bir adam içəri girir. İncə bir səs tonuyla, "asqıda qəhvəniz varmı" deyə soruşur.

Məlum olur ki, Neapolda insanlar biri-birilərini görmədən qəhvə və hətta yeməyə belə qonaq edirlər.

Yeri gəlmişkən, qardaş Türkiyədə bəzi çörək dükanlarının bayır tərəfində imkansız ailələr, tələbələr üçün belə "asqı çörəklər" ikram edilir.

❖Dünyanın ən uzunmüddətli işığı tam 117 ildir yanır. 1901-ci ildən yanmağa başlayan lampa ABŞ-da bir xilasetmə mərkəzindədir. Bu illər boyunca lampa heç vaxt söndürülməyib.

❖Sinqapurda indiyədək misli görünməmiş hicab hazırlanıb. 38 milyon dollarlıq hicabın tikilməsində almaz və yaqutlardan istifadə olunur.

Hicab Vyetnamın şimalındakı cəngəlliklərdə yaşayan "vyamon" adlı iri, qara hörümçəklərin torundan çəkilmiş liflərdən toxunub. Belə lifin 100 qramının qiyməti 24 milyon dollardır. Liflərlə yanaşı, toxunuşda platindən hazırlanmış və yoğunluğu 1 mikron olan saplardan, 2 mikronluq yaqut və almaz dənələrdən, habelə İndoneziyanın şimal sahillərində yaşayan "sayolm" adlı qağayıların tüklərindən istifadə edilib. "Sayolm" qağayılarının tükünün 1 kiloqramı 10 il ərzində əldə olunur və həddən ziyadə bahadır.

Açıq çəhrayı rəngdəki hicabın ilkin, "işçi" variantı hazırdır. On səkkiz toxucu qızın dörd aya toxuduğu ilkin variantın özü belə, artıq 16 milyon dollara başa gəlib.

Hicabın kənarına Qurani-Kərimdən ayələr kərgədan buynuzundan hazırlanmış kiçik hərflərlə yazılıb.

Hicab tam hazır olandan sonra hərraca çıxarılacaq və satışdan əldə edilmiş pullar İndoneziyada sunami və zəlzələdən zərər çəkənlərin yardımlarına yönəldiləcək.

Ə.Ruhiyyə

FƏSİLLƏR DƏYİŞSƏ DƏ...

Həftə ərzində 7 gün , gün ərzində 24 saat təhlükəsiz yaşamaq istəyən hər bir insanımız, Azərbaycanı, onun cənnətməkan guşələrindən olan Masallını seçən hər bir qonaq polisin də xidmətindən, peşəkar fəaliyyətindən razılıq edir.

İndi Azərbaycan turizmin fəsil hüdudlarını da aradan qaldırıb və bütün il boyunca bölgələrdə həyat, necə deyərlər, qaynayır. RPŞ-nin rəisi, polis polkovniki Habil Əmiraslanovun rəhbərliyi ilə keçirilən əməliyyat müşavirəsində də elə

söhbət fəsillərin, ilin növbəti dönəmində cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində görülən işlər barədədir.

*****

Masallı RPŞ-Post-Patrul Xidmətinin əməkdaşları, polis serjantları Viktor Niftalıyev və Tural Abışov həm də idmançıdırlar. Bu gənclər respublika yarışlarında iştirak edir, xidmətə idmanda qazandıqları təcrübəni də əlavə edirlər.

Üzeyir Muradov

2019-cu ilin I yarısı üçün "Mübariz keşikdə"yə-öz qəzetinizə abunə olmağa tələsin!

DAXİLİ İŞLƏR NAZİRLİYİ
SOSİAL ŞƏBƏKƏLƏRDƏ

Facebook
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.facebook.com/mia.gov.az/

İnstagram
Adı- azerbaycan.din
Keçid linki- https://www.instagram.com/azerbaycan.din/

Twitter
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://twitter.com/MIAAzerbaijan

Youtube
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.youtube.com/channel/UCnOFln-vwFvkLMCMGyg2j-w/featured

"QAYĞISIZ GÜNLƏR"indən "QAYĞILI İLLƏR"inə

Uzun illər yaşadığı Rusiya Federasiyasından vətənə dönmüşdü. Halal zəhmətiylə pul qazanıb ailələrinin dolanışığını təmin edən çoxsaylı həmvətənlilərimizdən fərqli olaraq, Siyavuş Həmzəyev orada törətdiyi əməllərə görə məhkumluq həyatı da yaşamışdı. Doğulub boya-başa çatdığı gənclər şəhəri Mingəçevirə qayıtdıqdan sonra fərli-başlı bir işlə məşğul olmurdu. Gününü orda-burda yeyib-içməklə və avaraçılıqla keçirirdi.

Belə məclislərdən birində şəhər sakinləri Ceyhun Mirzəyev və Vüsal Ağayevlə tanış oldu. Bu "yoldaşlıq" bir müddətdən sonra daha da möhkəmləndi və beləliklə, Rəşad Abbaszadə də onlara qoşuldu. Hər dəfə bir yerdə toplaşanda Siyavuş pulsuzluqdan gileylənir, belə vəziyyətin onun həyat tərzinə yad olmasından, Rusiyada keçirdiyi "qayğısız günlər"dən uzun-uzadı danışırdı. Bir gün bu sıxıntıdan qurtarmağın yolu barədə onlara da söz açdı:

-Bilirsiniz ki, mən şəhər sakinlərini elə də yaxşı tanımıram. Amma siz hər tinə, hər küçəyə bələdsiz. Yaxşı pulu olan varlılardan bir-ikisini nişan verin, bizim də əlimiz pula dəysin.

Siyavuşun bu sözlərini sanki çoxdandı gözləyirlərmiş kimi tez-tələsik razılaşdılar. İlk təklif də Ceyhundan gəldi:

-Mən bir qadın tanıyıram, onun evində çoxlu pul olmamış deyil...

Planlaşdırdıqları kimi bir neçə gün həmin mənzili nəzarətə götürdülər. Ev sahibinin və qonşuların gəlib-getmə vaxtlarını dəqiqləşdirdilər. Hər şey hazır olanda binanın həyətində toplaşdılar. Qərara gəldilər ki, Ceyhunla Vasif aşağıda pusquda dursunlar. Siyavuş Rəşadla evin damına qalxdı. Siyavuş özləriylə gətirdikləri kəndiri belinə sarıyıb Rəşada bərk-bərk saxlamasını tapşırdı, sonra yavaş-yavaş başı aşağı mənzilin pəncərəsinə yaxınlaşıb əliylə itələdi.

Açıq pəncərədən otağa keçmək elə də çətin olmadı. Otaqların altını-üstünə çevirdi. Sonunda axtardığını tapdı. Və gəldiyi kimi də mənzili tərk etdi.

Ev sahibi Q.İsmayılova mənzilə daxil olanda qarət olunduğunu anladı və vaxt itirmədən polisə məlumat verdi. Fakt barədə Mingəçevir ŞPŞ-nin rəisi, polis polkovniki Cavid Muradov da məlumatlandırıldı. Rəisin göstərişinə əsasən, yaradılmış əməliyyat-istintaq qrupu hadisə baş verən ünvana yollandı. Lazımi müayinələr aparıldı, əl-barmaq izləri götürülərək araşdırılması üçün aidiyyatı üzrə göndərildi, şahidlərin olub-olmaması araşdırıldı.

Bu müddətdə dəstə şəhər ərazisində oxşar üsulla daha iki mənzildən oğurluq etdi.

Lakin intensiv və peşəkarlıqla aparılan əməliyyat-axtarış tədbirlərindən sonra bəd əməlləri ilə mingəçevirliləri rahatsız edən dəstə üzvləri bir-bir yaxalanıb istintaqa təhvil verildilər.

Çingiz Şıxverdiyev,
polis polkovnik-leytenantı

Türkiyə hökuməti terror təşkilatlarına qarşı mübarizədə fəaliyyət istiqamətlərini genişləndirib. Bu barədə daxili işlər naziri Süleyman Soylu məlumat verib.

Nazir bildirib ki, PKK, İŞİD və FETÖ terror təşkilatlarına qarşı paralel olaraq mübarizə aparılır. Təkcə bu il PKK-ya qarşı 87 min 838 antiterror əməliyyatı keçirilib və nəticədə 1289 terrorçu zərərsizləşdirilib. Ötən ilin ilk günlərindən bu vaxtadək, ümumilikdə, 723 terrorçu silahı yerə qoyub. Ailələri ilə aparılan danışıqlar sayəsində son 22 ayda 282 terrorçu təhlükəsizlik qüvvələrinə könüllü təslim olub.

*****

Bu ilin 9 ayında Ukraynada 1241 qətl hadisəsi baş verib.

Bu barədə Ukraynanın Baş prokuroru məlumat verib. Onun sözlərinə görə, hesabat dövründə 1717

quldurluq, təxminən 2000 nəfərə qarşı hücum faktı qeydə alınıb. Hazırda Ukraynada 3 milyondan çox vətəndaş qeyri-qanuni silah gəzdirir.

*****

İtaliyanın hüquq-mühafizə orqanları "Eurojust" agentliyi və Avropanın altı ölkəsinin istintaq orqanlarının dəstəyi ilə "online" totalizatorları sahəsində mafiya fəaliyyətinə qarşı genişmiqyaslı əməliyyat keçirib.

Bu barədə İtaliyanın Mütəşəkkil cinayətkarlıq və terrorizmlə mübarizə üzrə Milli İdarəsi məlumat yayıb.

Təhqiqatın gedişində Avropanın ümumi həcmi 4,5 milyard avroya çatan idman totalizatorları bazarının böyük hissəsinə nəzarət edən cinayətkar qruplaşmanın şaxələnmiş şəbəkəsi aşkarlanıb.

Polisin xüsusi təyinatlı dəstələri və maliyyə qvardiyasının əməkdaşları əməliyyatın gedişində qruplaşmanın 68 üzvünü saxlayıb, onların İtaliya ərazisində və xaricdə ümumi həcmi 1 milyard avroya çatan əmlakları müsadirə edilib.

Cinayətkarlar online-totalizatorlarda qanunsuz yolla əldə etdikləri gəlirləri daşınmaz əmlaka yatırıb və ya xarici banklara köçürüblər. Hazırda Avstriya, İsveçrə, Böyük Britaniya, Niderland, Serbiya, Albaniya, İspaniya və Maltada bu əmlakların müsadirəsinə başlanılıb. Hüquq-mühafizə orqanları təxminən 80 şəhərdə axtarışlar aparırlar.

*****

Sosial şəbəkədə narkotik alveri ilə bağlı şübhəli paylaşımların analizini süni zəkaya həvalə ediblər. Belə ki, xüsusi alqoritmlər bu analizi moderator qismində çalışan insanlardan daha sürətli edəcək. Beləliklə, Feysbuk və İnstaqram sosial şəbəkələr sayəsində öz müştəriləri ilə əlaqə yaradan narkotik alverçilərini süni zəka vasitəsilə təyin etmək işinə keçirlər. Yeni sistem narkotik vasitələrin əks olunduğu fotoları sürətli şəkildə silməyə qadirdir. Sistem bunu hətta istifadəçilərin həmin fotonu şikayət etməmiş silməyi bacarır: "Bizim texnologiyamız nəinki qadağan olunmuş maddələrin əks olunduğu fotoları, həm də onların satışı ilə bağlı niyyətləri, qiymətləri, narkotik alverçilərinin telefon nömrələrini və onların sosial şəbəkə hesablarının linklərini də təyin etməyi bacarır",- deyə Feysbukun açıqlamasında bildirilib.

Bu texnologiyanı digər şirkətlər də təkmilləşdirərək istifadə edə biləcəklər. Onların arasında "Google" və "Twitter" kimi şirkətlər var.

*****

"Axon" şirkəti "Pulse +" adlı innovativ elektroşok silahı hazırlayıb. Yeni qurğu polisi müstəqil "çağıracaq". Bu isə atəş açılandan sonra baş verəcək.

Məlumata görə, silahdan istifadə zamanı onu istifadəçi smartfonu ilə sinxronlaşdırmaq tələb olunur. Atəş zamanı qurğu smartfonun polislə əlaqə yaratması və xilasetmə xidmətinə istifadəçinin olduğu yer haqqında geolokasiya məlumatlarının göndərilməsi üçün siqnal ötürür.

İstehsalçı şirkət atəşdən sonra hadisə yerində qalan silahın yenisi ilə əvəzlənməsinə zəmanət verir.

C.Natiq

HƏRBÇİLƏRİMİZDƏN NÖVBƏTİ QƏLƏBƏ

Noyabrın 8-dən 10-dək Polşanın Polsk şəhərində əlbəyaxa döyüş növləri üzrə Avropa çempionatı keçirilib. Qitənin 28 ölkəsindən 400-dən çox idmançının qələbə uğrunda mübarizə apardığı bu yarışda milli komandamız da təcrübəli idmançılarla təmsil olunub.

Mötəbər yarışda ***DİN Daxili Qoşunlarının zabiti, kapitan Aydın Həşimov*** çəkisi 75 kiloqramadək olan idmançılar arasında bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb.

A.Həşimov döyüş sambosu üzrə beynəlxalq dərəcəli idman ustası, Ciu-citsu idman növü üzrə "Birinci dan qara kəmər" sahibidir. O, Kik-citsu idman növü üzrə peşəkarlar arasında "Ən texnikalı idmançı" adına layiq görülüb, həmçinin

bu idman növündə keçirilmiş dünya kuboku uğrunda yarışın qalibi olub. İki dəfə respublika çempionu adını qazanan A.Həşimov dəfələrlə beynəlxalq yarışlarda, hərbçilər arasında keçirilən turnirlərdə fərqlənib, mükafatlar qazanıb.

DİN Daxili Qoşunlarının daha bir hərbi qulluqçusu, ***baş leytenant İlqar Nəcəfli*** də bu yarışın favoritləri sırasında olub. O, çəkisi 85 kiloqramadək olan idmançılar arasında qarşılaşdığı bütün görüşlərdə rəqiblərinə üstün gələrək növbəti dəfə Avropa çempionu olub.

İ.Nəcəfli ikiqat dünya və Avropa çempionu, Avro-Asiya yarışının qalibi, dünya kubokunun sahibidir.

Onu da bildirək ki, təmsilçilərimizi bu yarışa DİN İdman Cəmiyyətinin əməkdaşı, əməkdar məşqçi Hikmət Hacıyev hazırlayıb.

Zeyni Hüseynov,
polis serjantı

Noyabrın 14-dən 20-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 772 cinayət qeydə alınmış, onların 107-si «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 108 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 185 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 5 nəfər, borclu şəxs qismində axtarışda olan 94 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 44 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 24 nəfər ölmüş, 46 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 41 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 172 nəfər saxlanılmışdır.

DİN Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Fuad Bəxtiyarov və şəxsi heyəti Samux RPŞ-nin rəisi Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Binəqədi RPİ-nin rəisi Namiq İsmayılov və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xəzər RPİ-nin rəisi Azər Muradov və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Abşeron RPİ-nin rəisi Şəhriyar Şəmşirli və şəxsi heyəti iş yoldaşları

KOROĞLU DÜNYAMALIYEVİN
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Gədəbəy RPŞ-nin rəisi Məhərrəm Quliyev və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zərdab RPŞ-nin rəisi Teymur Hacıyev və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti iş yoldaşları Nazim Ələmşahova anası

ŞƏRƏFNİSƏ xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmli və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti iş yoldaşları Xaliq Məmmədova anası

ƏSMƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beyləqan RPŞ-nin rəisi Rəşid Piriyev və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daşkəsən RPŞ-nin rəisi Vəfadar Orucov və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Füzuli RPŞ-nin rəisi Xəqani Məmmədov və şəxsi heyəti Akif Nəbiyevə anası

HƏCƏR xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Polis Akademiyasının 2003-cü il məzunları kursant yoldaşları

KOROĞLU DÜNYAMALIYEVİN
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

ALLAH RƏHMƏT ELƏSİN!

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00